**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT SOSİAL XƏRCLƏRİNİN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ ARTIRILMASI YOLLARI

İxtisas: 5308.01-"Ümumi iqtisadiyyat"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Aygün Nazim qızı Təhməzli**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş
dissertasiyanın

**AVTOREFERATI**

**Bakı -2025**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "İnklüziv sosial inkişaf" şöbəsində yerinə yetirilmişdir.


Elmi rəhbər: iqtisad elmlər doktoru
**Rəsmiyyə Sabir qızı Abdullayeva**

Rəsmi opponentlər: iqtisad elmlər doktoru, professor
**Səfər Həsən oğlu Pürhani**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Elmira Məhəmməd qızı Qocayeva**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərviz Səməd oğlu Həsənov**


Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya şurası


Dissertasiya şurasının sədri: ____________ iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffərli (İmanov)**

Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor
**Elşad Yaqub oğlu Məmmədov**

## MÜNDƏRİCAT

**GİRİŞ**

**I FƏSİL. DÖVLƏTİN SOSİAL XƏRCLƏRİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ**

1.1. Sosial xərclər anlayışına nəzəri baxışlar

1.2. Dövlətin sosial xərclərinin təsnifatı

1.3. Dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyinin ölçülməsinin konseptual əsasları

**II FƏSİL. AZƏRBAYCANDA DÖVLƏTİN SOSİAL XƏRCLƏRİNİN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Dövlətin sosial xərclərinin mövcud vəziyyətinin təhlili

2.2. Dövlətin sosial xərclərinin iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi

2.3. Dövlətin sosial xərclərinin səmərəliliyinə təsir edən amillər

**III FƏSİL. AZƏRBAYCANDA DÖVLƏTİN SOSİAL XƏRCLƏRİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ**

3.1. Dövlətin sosial xərclərinin səmərəliliyinin artırılması yollarının müəyyənləşdirilməsində mütərəqqi dünya təcrübəsindən istifadənin perspektiv istiqamətləri

3.2. Azərbaycanda sosial inkişafın təmin olunması yolları

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə dünyada sosial problemlərin həlli beynəlxalq təşkilatların və hökumətlərin daha çox diqqət mərkəzindədir. Hökumətlərin sosial siyasətlərinin mərkəzində məhz iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan insan amilinə xidmət etmək dayanır. Əhalinin tələbatlarının ödənilməsi və rifahın yaxşılaşdırılması ölkələrin sosial-iqtisadi cəhətdən inkişaf etdirilməsində mühüm rol oynayır. Bu məqsədlə də son illərdə ölkələrin əksəriyyətində dövlət büdcəsindən sosial istiqamətdə ayrılan xərclərin artdığı müşahidə edilir. Sosial xərclərin artırılması daha çox qloballaşma və demoqrafik tendensiyalardan qaynaqlanır. Bu xərclərə tələbin artdığı şəraitdə onları azaltmağa çalışmaq heç də düzgün hesab olunmur. Bu, həm də sosial təhlükəzlik üçün təhdid sayılır.

Sosial təhlükəsizliyin təmin olunması rifah halından, gəlirlərin ədalətli şəkildə yenidən bölgüsündən, sosial müdafiənin gücləndirilməsindən, keyfiyyətli təhsil və səhiyyə xidmətlərinin əlçatanlığından və s. asılıdır. Təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, sosial müdafiənin gücləndirilməsi üçün hökumətlər bu sahələrə ayrılan vəsaitləri artırır, müxtəlif proqramlar icra edir, əsaslı islahatlar aparırlar. Keyfiyyətli təhsil və səhiyyə xidmətlərinin cinsindən, sosial statusundan və siyasi mövqeyindən, yaşadığı yerdən asılı olmayaraq bütün vətəndaşlar üçün əlçatanlığı dövlət siyasətinin diqqət mərkəzində olmalıdır. Əlçatanlığın təmin olunması iqtisadi inkişafı daha da sürətləndirə bilər.

Qeyd etmək lazımdır ki, uzunmüddətli iqtisadi artıma nail olmaq üçün təkcə sosial xərclərin artırılması deyil, eyni zamanda onun iqtisadi səmərəliliyinin yüksəldilməsi vacibdir. Çünki aparılan tədqiqatlar sübut edir ki, sosial xərclərin nominal olaraq artımı heç də onun iqtisadi inkişafla birbaşa əlaqəsinin olduğunu ifadə etmir. Sosial-iqtisadi inkişafı təmin etməkdən ötrü bu xərclərin səmərəliliyini artırmaq lazımdır. Hazırda bir sıra ölkələrdə sosial xərclərin iqtisadi səmərəliliyinin artırılması əsas problemlərdən biridir.

Son illərdə bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda da davamlı inkişafı təmin etmək, vətəndaşların həyat səviyyəsini və həyat keyfiyyətini artırmaq üçün müxtəlif sosial yönümlü layihələr və proqramlar həyata keçirilməkdədir. Azərbaycanda rifah halının yaxşılaşdırılması dövlətin sosial siyasətinin prioriteti hesab olunur və başlıca olaraq dövlət büdcəsi tərəfindən həyata keçirilir. Dövlət tərəfindən bu sahələrə ayrılan xərclər büdcənin tərkibində əhəmiyyətli yer tutmaqla bərabər, həm də sosial siyasətin reallaşdırılması üçün vacib şərt sayılır. Lakin bu xərclərdən necə istifadə olunması, onun iqtisadi səmərəliliyinin təmin edilməsi müasir dövrdə hökumətin sosial-iqtisadi siyasətinin prioritetlərindən olmalıdır. Bu baxımdan, ölkəmizdə sosial xərclərin (təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat) iqtisadi səmərəliliyinin qiymətləndirilməsi və artırılması yollarının müəyyənləşdirilməsi xüsusi aktuallıq kəsb edir.

Dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi və artırılması ilə bağlı tədqiqatlara həm Azərbayan, həm də xarici ölkə alimləri və mütəxəssisləri xüsusi diqqət ayırmışdır.

**Problemin öyrənilmə səviyyəsi.** Dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi ilə bağlı Azərbaycan alimlərindən Ş.M.Muradov, N.M.Müzəffərli (İmanov), Q.C.İmanov, T.N.Əliyev, Ə.Ə.Ələkbərov, Ə.Q.Əlirzayev, R.K.İsgəndərov, R.T.Həsənov, F.P.Rəhmanov, R.S.Abdullayeva, E.Y.Məmmədov, Y.Ə.Məmmədov, E.Ə.İbrahimov, C.B.Quliyev, A.N.Muradov, P.S.Həsənov, H.Ə.Hüseynov, R.A.Hüseynov, Z.T.Vəliyev, xarici ölkə alimlərindən isə Mandl U., Dierx A., İlzkovitz F., Kraan D.J., Malinska J., Manning N., Matthews E., Afonso A., Alegre J.G., Balaguer-Coll M.T., Prior D., Gimenez V.M., Prior D., Lonti Z., Woods M., Aubyn M.S., Schuknecht L., Tanzi V., Dutu R., Sicari P., Herrera S., Pang. G, Esanov A., Wang E.C., Alvi E., Rault C., Furceri D. Və digərləri tədqiqat aparmışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işində məqsəd Azərbaycan Respublikasında dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyini qiymətləndirmək və artırılması yollarını

müəyyənləşdirməkdən ibarətdir. Qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

1. Dövlətin sosial xərclərinin nəzəri aspektlərinin tədqiq olunması;
2. Azərbaycanda dövlətin sosial xərclərinin mövcud vəziyyətinin təhlili və bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisəsinin aparılması;
3. Azərbaycanda dövlətin sosial xərclərinin sosial-iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi;
4. Dövlətin sosial xərclərinin səmərəliliyinə təsir edən iqtisadi, demoqrafik və institusional amillərin müəyyənləşdirilməsi;
5. Dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyinin artırılması yollarının müəyyənləşdirilməsində mütərəqqi dünya təcrübəsindən istifadənin perspektiv istiqamətlərinin araşdırılması;
6. Azərbaycanda sosial inkişafın təmin olunması yollarının müəyyənləşdirilməsi.

**Tədqiqat obyekti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasında dövlət büdcəsindən səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat istiqamətində ayrılan xərclərdir.

**Tədqiqat predmeti.** Tədqiqat işinin predmetini dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi və artırılması ilə bağlı iqtisadi hadisə və proseslərin nəzəri, metodoloji və praktiki məsələlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqat metodları.** Tədqiqat işində məntiqi ümumiləşdirmə, sorğu, müqayisəli və sistemli təhlil, analitik-statistik təhlil, korrelyasiya və reqressiya, ARDL riyazi modelləşdirmə metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. Sosial-iqtisadi inkişafa təsiri baxımından sosial xərclər dolayı və birbaşa olmaqla iki qrupa bölünür.
2. Sosial xərclərin səmərəliliyinə iqtisadi, demoqrafik, institusional amillər təsir göstərir.
3. Adambaşına düşən səhiyyə xərcləri ilə doğulanda gözlənilən ömür uzunluğu arasında müsbət əlaqə vardır.
4. Adambaşına düşən məcmu təhsil xərcləri ilə PİSA qiymətləndirməsinin nəticələri arasında müsbət asılılıq vardır.

5. Azərbaycanda sosial müdafiə və sosial təminat xərclərinin, səhiyyə xərclərinin artması ÜDM-in artım tempini azaldır, təhsil xərcləri isə artırır.

6. Azərbaycanda sosial müdafiə və sosial təminat, təhsil xərcləri ilə yoxsulluq arasında müsbət, səhiyyə xərcləri ilə yoxsulluq arasında mənfi asılılıq vardır.

7. Azərbaycanda dövlət sosial xərclərinin iqtisadi səmərəliliyi aşağıdır.

**Tədqiqatın elmi yeniliyi.**

1. Müəllif tərəfindən sosial xərclərin yeni təsnifatı irəli sürülmüşdür;

2. Sosial xərclərin səmərəliliyinə təsir edən iqtisadi, demoqrafik və institusional amillər müəyyənləşdirilmişdir;

3. İlk dəfə olaraq Azərbaycanda sosial müdafiə və sosial təminat, səhiyyə və təhsil xərclərinin ÜDM-in artım tempinə və yoxsulluğa təsiri ekonometrik qiymətləndirilmişdir.

4. Azərbaycanda dövlət sosial xərclərinin artmasına baxmayaraq, bu xərclərin səmərəliliyinin aşağı olduğu müəyyənləşdirilmişdir.

5. Azərbaycan da daxil olmaqla 12 ölkədə (bəzi İEÖ və qonşu ölkələr) adambaşına düşən səhiyyə xərcləri ilə doğulanda gözlənilən ömür uzunluğu arasında asılılıq müəyyənləşdirilmişdir.

6. İƏİT ölkələrində adambaşına düşən məcmu təhsil xərcləri ilə PİSA qiymətləndirməsinin nəticələri arasında asılılıq müəyyənləşdirilmişdir.

7. Azərbaycanda dövlət sosial xərclərinin iqtisadi səmərəliliyinin artırılması istiqamətində təklif və tövsiyələr verilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işindən dövlət sosial xərclərinin səmərəliliyinin artırılmasında, təhsil və səhiyyə sisteminin keyfiyyətinin yüksəldilməsində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin nəticələri ilə bağlı Azərbaycan, Türkiyə, Serbiya, Rusiyada keçirilən konfranslarda çıxışlar edilmişdir. Onların sırasına “Azərbaycanda sosial xərclərin iqtisadi artıma təsiri (2006-2017)” (Azərbaycan-2018), “Təhsilin

sosial və iqtisadi inkişafda rolu" (Azərbaycan-2019), "Объяснение концепции социальных расходов и оценка текущей ситуации в Азербайджане" (Rusiya-2022), "Dayanıqlı inkişaf məqsədləri çərçivəsində Azərbaycanda sosial inkişafın təmin olunması" (Azərbaycan-2023), "The role of social entrepreneurship in reducing poverty in Azerbaijan" (Türkiyə -2023), "The assessment of the role of social innovations in improving welfare in Azerbaijan" (Serbiya-2024) daxildir.

Dissertasiya mövzusu üzrə 12 elmi əsər dərc etdirilmişdir. Məqalə və tezislərin 4-ü xarici jurnallarda, 8-i AAK-ın tövsiyə etdiyi nüfuzlu jurnallarda dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu

**Dissertasiya işinin həcmi.** Dissertasiyanın I fəsli 51782 işarə, II fəsli 58790 işarə, III fəsli 79439 işarədən, nəticə və təkliflər 6220 işarədən, dissertasiya ümumilikdə 204992 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, nəzəri-metodoloji əsasları, informasiya bazası, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti şərh edilir. Tədqiqatın nəticələrindən və təkliflərdən istifadə edilməsi barədə məlumat verilir.

**"Dövlətin sosial xərclərinin nəzəri-metodoloji aspektləri"** adlanan **birinci fəsildə** sosial xərclər anlayışına nəzəri baxışlar verilmiş, "sosial dövlət" anlayışının formalaşmasının tarixi inkişaf mərhələləri araşdırılmış, dövlətin sosial xərcləri təsnifləşdirilmiş, dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi ilə bağlı müxtəlif alimlərin elmi yanaşmaları müqayisəli təhlil edilmişdir. Bu fəsildə "sosial dövlət" və "sosial xərclər" anlayışlarının mahiyyəti açıqlanmış, dövlətin sosial xərcləri ilə bağlı müxtəlif alimlərin apardığı təsnifat təqdim edilmişdir. Sosial xərclərlə bağlı yeni təsnifat irəli sürülmüş, sosial xərclərin iqtisadiyyata və ümumi rifaha təsirləri araşdırılmışdır.

Sosial xərclərin təsnifatı sosial xərclərin mahiyyətini və təsirini başa düşmək üçün vacibdir. Aşağıdakılar dövlətin sosial xərclərinin müxtəlif iqtisadçılar tərəfindən hazırlanmış ən vacib təsnifatlarıdır:

1. **Fayda meyarları:**

XIX əsrdə qəbul edilmiş ümumi xərclərin təsnifatı fayda vermək prinsipinə əsaslanır. Bu bölgü Con və Plehn tərəfindən hazırlanmışdır ([1]). Onlar sosial xərcləri 4 qrupa bölmüşdür. Bu təsnifatın tam olaraq qəbul edilməməsinin səbəbi bütün sosial xərclərin ictimai maraqlar üçün nəzərdə tutulmasıdır. Sosial xərclərin xüsusi, yaxud ümumi fayda verməsi arasında fərq qoymaq çox çətindir. Xüsusi faydanın verdiyi məmnuniyyət ümumi faydanın yaranmasına səbəb ola bilər. Məsələn, yoxsul təbəqəyə çəkilən xərclər dərhal cinayətkarlığın qarşısının alınması, ümumi ədalət hissinin təmin edilməsi və s. kimi ümumi fayda ilə nəticələnir.

F.S.Nikolson isə sosial xərclərin daha bir elmi təsnifatını vermişdir.

**2. Gəlir meyarları:**

F.S.Nikolson sosial xərcləri dövlətin göstərdiyi xidmətlər müqabilində gəlir yaratma xüsusiyyətlərinə görə təsnif etmişdir. Bu təsnifat da dəqiq olmadığından tənqidə məruz qalmışdır. Bu təsnifat bir neçə xərc maddəsi arasındakı fərqi ortaya çıxara bilməmişdir. Məsələn, sosial müdafiə və yoxsulluğa qarşı çəkilən xərclər birinci kateqoriyaya aiddir, lakin bu xərclər eyni zamanda, gəlirlərin yaranmasına dolayı şəkildə fayda verir.

**3. Funksional meyarlar:**

Dövlət xərclərinin digər bir təsnifatı H.C.Adams tərəfindən aparılmışdır ([2]). Funksional təsnifat dövlət orqanları tərəfindən həyata keçirilən müxtəlif funksiyaların təsnifatına əsaslanır və hökumətin 3 əsas funksiyası (qoruyucu, ticarət və inkişaf) üzrə təsnifləşdirilir. Bu bölgünün də özünəməxsus çatışmazlıqları vardır. Xərclərin mahiyyəti arasında dəqiq fərq yoxdur.

Qeyd etmək lazımdır ki, hər bir təsnifatın öz çatışmazlıqları vardır. Lakin son illərdə dövlətin fəaliyyət dairəsi dinamik olaraq

---

[1] Plehn, C. C. (1897). Introduction to Public Finance. New York: Macmillan.

[2] Adams, H. C. (1899). The Science of Finance: An Investigation of Public Expenditures and Public Revenues. New York: Henry Holt and Company

dəyişir. Beləliklə, sosial xərclərin sistematik bir təsnifatını müəyyənləşdirmək çox çətindir.

Azərbaycanda dövlət sosial xərcləri dedikdə, büdcədən sosial istiqamətdə ayrılan xərclər nəzərdə tutulur. Vahid büdcə təsnifatına görə büdcə xərcləri dörd cür qruplaşdırılır: funksional, iqtisadi, inzibati və proqram təsnifatı ([3]). Bu tədqiqatda dövlət sosial xərcləri təsnifləşdirilərkən səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat xərclərinə baxılmış və onların iqtisadi səmərəliliyi qiymətləndirilmişdir.

Fikrimizcə, dövlət xərcləri daxilində sosial xərcləri fərqləndirən zaman ilk növbədə əsas amil kimi bu xərclərin sosial-iqtisadi inkişafa təsirlərini nəzərə almaq lazımdır. Məlumdur ki, bütün xərclərin hamısının bir məqsədi olmalıdır. Əgər dövlət tərəfindən hər hansısa bir sahəyə maliyyə vəsaiti cəlb olunursa, bunun ümumilikdə ölkə üçün və həmin ölkənin vətəndaşları üçün xüsusi bir əhəmiyyəti gözlənilir. Məhz bu aspektdən yanaşdıqda dövlətin sosial xərclərinin tərkibinə sosial-iqtisadi inkişaf indikatorlarının yaxşılaşması ilə nəticələnən səhiyyə, təhsil və sosial müdafiə və sosial təminat xərclərini aid etmişik. Bildiyimiz kimi, ölkənin sosial-iqtisadi inkişafını xarakterizə edən əsas göstəricilər ÜDM-in artım tempi, yoxsulluq səviyyəsi, gəlir bərabərsizliyi, əhalinin savadlılıq səviyyəsi, işsizlik səviyyəsi və s.-dir. Fikrimizcə, bu baxımdan sosial xərclər elə xərclər hesab olunmalıdır ki, o xərclərdən səmərəli istifadə nəticəsində ölkənin sosial-iqtisadi inkişafı təmin olunsun, sadaladığımız göstəricilər yaxşılaşsın, əhalinin rifah halı yüksəlsin.

Sosial xərcləri təsnifləşdirərkən isə, bu xərclərin sosial-iqtisadi inkişafa birbaşa və ya dolayı təsirlərini əsas götürmüşük. Məsələn, ünvanlı sosial yardımlar, işsizliyə görə, çoxuşaqlı ailələrə verilən müavinətlər qısa müddətli dövrdə bu qruplardan olan əhalinin rifah halını yaxşılaşdırmaqla yoxsulluğun, gəlir bərabərsizliyinin azalmasına səbəb olduğu üçün bu xərcləri **birbaşa** sosial xərclər qrupuna aid etmişik. Təhsil və səhiyyə xərcləri isə insan kapitalına qoyulan investisiya xarakterli xərclər olduğundan və sosial-iqtisadi inkişafa təsirini müəyyən müddətdən sonra görmək mümkün olduğundan, bu xərcləri **dolayı** xərclər hesab etmişik.

---

[3] Z.Vəliyev, Dövlət (ictimai) maliyyəsinin idarə edilməsi-2023.

**“Azərbaycanda dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi”** adlanan **ikinci fəsildə** ümumilikdə respublikamızda dövlətin səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat xərclərinin mövcud vəziyyəti bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisəli şəkildə təhlil edilmiş, dövlətin sosial xərclərinin ÜDM-in artım tempinə və yoxsulluğa təsiri ekonometrik qiymətləndirilmiş və səmərəliliyə təsir edən iqtisadi, institusional və demoqrafik amillər müəyyənləşdirilmişdir.

Son illərdə bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da davamlı və dayanıqlı inkişafı təmin etmək, sosial-iqtisadi inkişafı əhəmiyyətli dərəcədə sürətləndirmək, vətəndaşların həyat səviyyəsini və həyat keyfiyyətini artırmaq üçün müxtəlif sosial yönümlü layihələr və proqramlar həyata keçirilir.

Əhalinin sosial tələbatlarının ödənilməsi başlıca olaraq dövlət büdcəsi tərəfindən maliyyələşdirilir. Dövlət tərəfindən sosial sahələrə ayrılan xərclər büdcənin tərkibində əhəmiyyətli paya malik olmaqla bərabər, həm də sosial siyasətin reallaşdırılması üçün vacib şərt sayılır. Bu baxımdan sosial təminat, səhiyyə, təhsil xərclərini təhlil etmək mühüm əhəmiyyət kəsb edir. Aşağıdakı qrafikdə dövlətin sosial xərcləri əks olunmuşdur (Qrafik 1).




**Qrafik 1. Azərbaycan Respublikasında dövlət büdcəsindən ayrılan təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat xərcləri, mln. manat, 2010-2022-ci illər**

**Mənbə:** https://www.stat.gov.az/source/finance/ əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, 2022-ci ildə səhiyyə, təhsil, sosial müdafiə və sosial təminat xərcləri 2010-cu illə müqayisədə təxminən 3 dəfə artmışdır. Həm səhiyyə, həm sosial müdafiə və sosial təminat xərclərinin 2019-cu illə müqayisədə 2020-ci ildə COVİD-19 pandemiyası səbəbindən daha kəskin artdığını görə bilirik.

Bununla yanaşı, dövlətin təhsil, səhiyyə, sosial müdafiə və sosial təminata ayırdığı sosial xərclərin həqiqi mənzərəsinin necə dəyişdiyini görmək üçün onların nisbi göstəricilərlə, yəni ÜDM-ə nisbəti nəzərə alınaraq qiymətləndirilməsinin aparılması məqsədəuyğundur. Aşağıdakı qrafikdə dövlətin sosial xərclərinin ÜDM-ə nisbəti göstərilmişdir (Qrafik 2).




**Qrafik 2. Azərbaycan Respublikasında dövlət sosial xərclərinin ÜDM-ə nisbəti, %, 2010-2022-ci illər**

**Mənbə:** https://www.stat.gov.az/source/finance/ əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qrafik 2-dən də göründüyü kimi, 2010-2022-ci illər ərzində dövlət büdcəsindən bu istiqamətlərə ayrılan vəsaitin ÜDM-ə nisbətində artıb-azalmalar müşahidə edilmişdir. 2022-ci ildə isə hər 3 göstərici 2010-cu illə demək olar ki, eynidir. Bunu isə, sosial xərclərin ÜDM-lə eyni tempdə artdığı ilə izah etmək olar.

İqtisadi artımın təmin edilməsi ölkənin sosial-iqtisadi inkişafının həyata keçirilməsinə yönəldilmiş dövlətin əsas vəzifələrindən biridir. Bütün sosial-iqtisadi proseslərdə olduğu kimi, bu halda da asılılığın tədqiq olunması və kəmiyyətcə ölçülməsinin

əsas məsələsi asılılığın istiqamətinin müəyyənləşdirilməsi və qiymətləndirilməsidir. Bu tədqiqatda Azərbaycanda dövlətin təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat xərclərinin iqtisadi artıma necə təsir etdiyini müəyyənləşdirmək üçün dövlətin sosial xərcləri ilə ÜDM və yoxsulluq səviyyəsi arasında asılılıq analiz edilmişdir. İlk növbədə dəyişənlərin stasionarlığı Genişləndirilmiş Dickey-Fuller və Philips-Perron Vahid Kök Testi vasitəsilə yoxlanılmışdır. Sonra dəyişənlər arasında asılılıq ARDL analizi vasitəsilə müəyyən edilmişdir. Toplanmış məlumatlar, 1995-2022-ci illəri əhatə edən illik tezliyə malik məlumatlardır.

Analizə daxil edilən dəyişənlər arasında əlaqənin istiqaməti və gücünü müəyyənləşdirmək məqsədi ilə onlar arasında korrelyasiya əmsalları hesablanmış və nəticələri aşağıdakı cədvəldə təqdim edilmişdir (Cədvəl 1).

**Cədvəl 1. Korrelyasiya Matrisi**

| **Dəyişənlər** | UDM | SMX | SX | TX |
|---|---|---|---|---|
| UDM | 1 | | | |
| SMX | -0.4302** | 1 | | |
| SX | -0.5216*** | 0.4321** | 1 | |
| TX | -0.0936 | 0.2164 | 0.2832 | 1 |

***, ** və * müvafiq olaraq 1%, 5% və 10% əhəmiyyətlilik səviyyələrində korrelyasiya əmsalının əhəmiyyətli olduğunu göstərir.

Cədvəl 1-də verilən məlumatlara əsasən ÜDM və SMX, SX və TX arasında mənfi əlaqə vardır. ÜDM ilə SMX və SX arasında mənfi istiqamətdə və statistik baxımdan əhəmiyyətli əlaqə olsa da, ÜDM ilə TX arasında statistik baxımdan əhəmiyyətli əlaqə yoxdur.

Dəyişənlər arasında uzunmüddətli əlaqənin varlığı müəyyən edildikdən sonra, SMX, SX və TX dəyişənlərinin ÜDM üzərində uzunmüddətli təsirini öyrənmək məqsədilə, uzunmüddətli dövr tənlikləri FMOLS metodu ilə təxmin edilmiş və nəticələri aşağıdakı cədvəldə verilmişdir (Cədvəl 2).

**Cədvəl 2. Genişləndirilmiş ARDL modelindən uzunmüddətli dövr əmsalları**

| *Dəyişənlər* | *FMOLS* |
|---|---|
| Sabit | 32.912** |
| SMX | -8.6823** |
| SX | -11.331* |
| TX | 4.3060 |

***, ** və * müvafiq olaraq 1%, 5% və 10% əhəmiyyətlilik səviyyələrində əmsalların əhəmiyyətliliyini göstərir.

Cədvəl 2-yə əsasən, SMX dəyişənində baş verən bir vahidlik artım, ÜDM-in ortalama olaraq 8,68 vahid azalmasına səbəb olacaqdır. SX dəyişənində baş verən bir vahidlik artım isə ÜDM-i 11,33 vahid azaldacaqdır. TX dəyişənində baş verən bir vahidlik artım, SMX və SX dəyişənlərindən fərqli olaraq ÜDM-i ortalama olaraq 4,30 vahid artırsa da, statistik baxımdan əhəmiyyətsizdir.

Ekonometrik təhlilin nəticələri göstərir ki, sosial təminat və səhiyyə xərcləri Azərbaycanda ÜDM-in artımına mənfi təsir göstərir və bu təsir statistik cəhətdən əhəmiyyətlidir. Digər tərəfdən, təhsil xərcləri ÜDM-in artımına müsbət təsir göstərsə də, bu təsir statistik baxımdan əhəmiyyətli deyil. Bundan əlavə, sosial təminat, səhiyyə və təhsil xərcləri ilə ÜDM-in artımı arasında iki istiqamətli səbəb-nəticə əlaqəsinin olmadığı mühüm tapıntıdır. Bu nəticələri iqtisadi baxımdan aşağıdakı kimi şərh edə bilərik.

**Sosial təminat və səhiyyə xərclərinin mənfi təsiri:** Sosial təminat və səhiyyə xərclərinin ÜDM-in artımına mənfi təsir göstərməsi bu xərclərin iqtisadi artımı dəstəkləmək əvəzinə potensial olaraq məhdudlaşdırması mənasına gəlir. Bu, sosial təminat və səhiyyə xərclərinin səmərəsiz istifadə edilməsi, səmərəli planlaşdırılmaması və ya iqtisadi artıma birbaşa təsir göstərən fəaliyyətlərə yönəldilməməsinin nəticəsidir. Sosial təminat və səhiyyə xərclərinin ÜDM-in artımına mənfi təsirlərini azaltmaq üçün bu xərclərin daha səmərəli və effektiv idarə edilməsi zəruridir.

**Təhsil xərclərinin müsbət, lakin əhəmiyyətsiz təsiri:** Təhsil xərclərinin müsbət, lakin statistik baxımdan əhəmiyyətsiz olması iqtisadiyyatda təhsilin uzunmüddətli artım təsirlərinin hələ tam olaraq ortaya çıxmadığını və ya mövcud xərclərdən səmərəli istifadə edilmədiyini göstərir. Burada təhsil xərclərinin keyfiyyəti, əmək

bazarının tələblərinə uyğunluq və insan kapitalının səmərəliliyi kimi amillər mühüm rol oynayır.

Bu tədqiqatda təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat xərclərinin, həm də yoxsulluq səviyyəsi üzərində təsiri analiz edilmişdir. Toplanmış məlumatlar 2001-2022-ci illəri əhatə edən illik tezliyə malik məlumatlardır.

Analizə daxil edilən dəyişənlər arasında, əlaqənin istiqaməti və gücünü təyin etmək məqsədilə, korrelyasiya əmsalları hesablanmış və əldə edilən nəticələr aşağıdakı cədvəldə verilmişdir (Cədvəl 3).

**Cədvəl 3. Korrelyasiya Matrisi**

| | YS | SMX | SX | TX |
|---|---|---|---|---|
| YS | 1 | | | |
| SMX | -0.2643 | 1 | | |
| SX | -0.5149** | 0.6406*** | 1 | |
| TX | 0.5189** | 0.3481 | 0.3429 | 1 |

***, ** və * müvafiq olaraq 1%, 5% və 10% əhəmiyyətlilik səviyyələrində korrelyasiya əmsalının əhəmiyyətli olduğunu göstərir.

Cədvəl 3-də təqdim edilən nəticələrə əsasən, YQ və SMX arasında mənfi yönlü əlaqə olsa da, bu əlaqə statistik baxımdan əhəmiyyətsizdir. YQ və SMX arasında orta səviyyəli mənfiyönlü, YQ və TX arasında isə orta səviyyəli müsbətyönlü əlaqə mövcuddur. Hər iki əmsal statistik baxımdan əhəmiyyətlidir. Buradan çıxan nəticələrə əsasən, SMX və SX dəyişənlərinin yoxsulluğu azaldacağını, TX-nın isə yoxsulluğu artıracağını demək olar.

**Cədvəl 4. Genişləndirilmiş ARDL modelinin uzunmüddətli dövr əmsalları**

| *Dəyişənlər* | *DOLS* |
|---|---|
| Sabit | -13.79 |
| SMX | 6.745** |
| SX | -64.31*** |
| TX | 26.23*** |

***, ** və * müvafiq olaraq 1%, 5% və 10% əhəmiyyətlilik səviyyələrində əmsalların əhəmiyyətliliyini göstərir.

SMX, SX və TX dəyişənlərinin yoxsulluq üzərindəki uzunmüddətli təsirini öyrənmək məqsədi ilə Dinamik Ən Kiçik Kvadratlar metodu ilə uzunmüddətli dövr tənliyi təxmin edilmişdir. Əldə edilən nəticələr isə Cədvəl 4-də verilmişdir. Cəvdəl 4-də verilən nəticələrə əsasən, SMX dəyişəninin ÜDM-ə nisbəti 1% artdığı zaman yoxsulluq səviyyəsi ortalama olaraq 6,75% artacaqdır. TX dəyişəninin ÜDM-ə nisbəti 1% artdığı zaman yoxsulluq səviyyəsi ortalama olaraq 26,23% yüksələcəkdir. SX dəyişəninin ÜDM-ə nisbəti 1% artdığı zaman yoxsulluq səviyyəsi ortalama olaraq 64,31% azalacaqdır.

**Sosial müdafiə xərcləri yoxsulluğu artırmışdır:** Araşdırmanın nəticələrinə görə, sosial təminat xərclərinin uzunmüddətli dövrdə yoxsulluğu artırdığı məlum olmuşdur. Bu nəticə sosial təminat sisteminin yoxsulluqla mübarizədə effektiv olmadığını və ya bu xərclərin kifayət qədər məqsədyönlü xərclənmədiyini göstərir. Sosial müavinətlərin real ehtiyacı olanlara çatmaması və ya qeyri-adekvat bölüşdürülməsi əsas səbəblərdəndir.

**Təhsil xərcləri yoxsulluğu artırmışdır:** Təhsil xərclərinin yoxsulluğu artırması gözlənilməz bir nəticədir və təhsil xərclərinin səmərəliliyi ilə bağlı suallar doğurur. Bu, onu göstərir ki, təhsilə ayrılan xərclərin yoxsulluğa müsbət təsir edəcəyi gözlənilsə də, bu xərclərdən kifayət qədər səmərəli istifadə olunmamışdır və ya təhsil sistemində struktur problemləri mövcuddur. Bu, təhsilin keyfiyyətinin aşağı olması və ya təhsilin əmək bazarının tələblərinə uyğun olmaması ilə izah oluna bilər.

**Səhiyyə xərcləri yoxsulluğu azaltmışdır:** Səhiyyə xərclərinin yoxsulluğu azaldıcı təsiri göstərir ki, tibbi xidmətlərə çıxış imkanlarının artırılması və səhiyyə sisteminin təkmilləşdirilməsi əhalinin sosial vəziyyətinə birbaşa təsir göstərə bilər. Səmərəli səhiyyə sistemi xəstəliklərin qarşısını almaq və müalicə xərclərini azaltmaqla insanların rifahını və həyat keyfiyyətini yaxşılaşdırır.

Qeyd etdiyimiz kimi, səhiyyə, təhsil və sosial müdafiə və sosial təminat xərclərinin kəmiyyətcə artması heç də həmişə bu sahələrdə vəziyyətin yaxşılaşmasına biristiqamətli təsir göstərmir. Xərclərin nominal olaraq artması ilə yanaşı, həm də onların hansı məqsədlər üçün və nə dərəcədə səmərəli istifadə olunması da vacib şərtdir.

Sənayeləşmiş ölkələrdə sosial xərclərin niyə artdığını izah etmək üçün bir çox yanaşmalar mövcuddur. Bu yanaşmalar isə onu deməyə əsas verir ki, səmərəliliyə təsir edən bir sıra xarici amillər vardır. Determinantlara qloballaşma, hökumətlərin ideologiyası, seçki motivləri, korrupsiya və s. kimi siyasi-institusional, əhalinin yaşlanması kimi demoqrafik, habelə işsizlik, adambaşına düşən gəlir və s. kimi iqtisadi amillər daxildir. Belə ki, müxtəlif amillər xərclərin səmərəliliyinə müsbət və mənfi olmaqla iki istiqamətdə təsir göstərə bilər. Büdcə kəsiri, ticarətin qloballaşması sosial xərclərlə mənfi, yaşlanma, işsizlik sosial xərclərlə müsbət əlaqələndirilir.

**“Azərbaycanda dövlətin sosial xərclərinin səmərəliliyinin artırılması istiqamətləri”** adlanan **üçüncü fəsildə** ölkəmizdə dövlətin sosial xərclərinin səmərəliliyinin artırılmasında mütərəqqi dünya təcrübəsinin tətbiqi imkanları müəyyənləşdirilmiş, respublikamızda sosial inkişafın təmin olunması yolları göstərilmişdir.

**Səhiyyə:** Səhiyyə xərcləri dövlət sosial xərclərinin əhəmiyyətli hissəsini təşkil edir. Yeni tibbi texnologiyaların daimi inkişafı, bir sıra ölkələrdə əhalinin qocalması və COVID-19 kimi pandemiyalara və onun yaratdığı böhranlara cavab vermək ehtiyacı gələcəkdə tibbi xərclərin daha da artacağını labüd edir.

Aşağıdakı qrafikdə bir sıra ölkələrdə ümumi səhiyyə xərclərinin və dövlətin səhiyyə xərclərinin ÜDM-ə nisbəti müqayisəli olaraq göstərilmişdir (Qrafik 3).




**Qrafik 3. İƏİT ölkələrinin bəzilərində səhiyyə xərcləri və dövlətin səhiyyə xərclərinin ÜDM-ə nisbəti, %, 2022-ci il**

**Mənbə:**https://www.macrotrends.net/countries/WLD/world/healthcare-spending və https://data.oecd.org/healthres/health-spending.htm əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən də göründüyü kimi, səhiyyə sistemi yaxşı inkişaf etmiş ABŞ, Almaniya, Norveç, İsveç, Finlandiya kimi ölkələrdə ümumi səhiyyə xərclərində əsas yeri dövlətin səhiyyə xərcləri tutur. Qeyd etmək lazımdır ki, hər bir ölkə üçün dövlət səhiyyə sistemini, ödəyə bilənlər üçün özəl tibbi sığortadan daha cəlbedici etmək əhəmiyyətli bir nailiyyətdir. Bu, Almaniya üçün xarakterikdir. Almaniyanın səhiyyə sistemindəki təcrübəsindən faydalanmaq ölkəmizdə tibbi sığorta sisteminin səmərəliliyinin artırılmasına, sağlamlıq göstəricilərinin yaxşılaşmasına təsir edə bilər.

Aparılan təhlillər göstərir ki, adambaşına düşən səhiyyə xərcləri artdıqca doğulanda gözlənilən ömür uzunluğu da artır və ya əksinə (Qrafik 4).




**Qrafik 4. Adambaşına düşən səhiyyə xərcləri və doğulanda gözlənilən ömür uzunluğu arasında korrelyasiya asılılığı (2021)**

**Mənbə:** https://data.oecd.org/healthres/health-spending.htm və https://population.un.org/wpp/ əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qrafik 4-dən də göründüyü kimi, adambaşına düşən səhiyyə xərcləri ilə doğulanda gözlənilən ömür uzunluğu arasında müsbət əlaqə vardır (r=0,755).

**Təhsil:** Təhsilə çəkilən dövlət xərcləri (ibtidai səviyyədən ali təhsil səviyyəsinə qədər) İƏİT ölkələri üzrə ümumi dövlət xərclərinin

orta hesabla 10%-ni təşkil edir, təxminən 6-16% arasında dəyişir. Dövlət maliyyəsinin əsas hissəsi ibtidai və orta təhsil arasında bölüşdürülür, bu da, təhsilin həmin pillələrində qəbul nisbətinin daha çox olması və ali təhsil pilləsində özəl maliyyə mənbələrinin üstünlük təşkil etməsi ilə əlaqələndirilir. 2019-2020-ci illərdə hətta təhsilə dövlət xərclərinin nominal olaraq artdığı ölkələrdə belə, ümumilikdə, digər dövlət xərcləri ilə müqayisədə azalmışdır. Bu illərdə təhsilə ayrılan dövlət xərclərinin büdcədəki payı İƏİT ölkələri üzrə orta hesabla 6,5%-ədək azalmışdır. Bu, hökumətləri iqtisadiyyatlarını dəstəkləmək üçün büdcələrinin əhəmiyyətli bir hissəsini xərcləməyə məcbur edən COVID-19 pandemiyası ilə əlaqədardır ([4]).

Aşağıdakı qrafikdə ümumi təhsil xərclərinin və dövlətin təhsil xərclərinin ÜDM-ə nisbəti müqayisəli şəkildə təsvir edilmişdir (Qrafik 5).




**Qrafik 5. İƏİT ölkələrinin bəzilərində təhsil xərcləri və dövlətin təhsil xərclərinin ÜDM-ə nisbəti, %, 2022-ci il**

**Mənbə:** https://data.worldbank.org/indicator/ əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən də göründüyü kimi, Fransa, Almaniya, Norveç, Finlandiya kimi ölkələrdə dövlətin təhsilə ayırdığı xərclər özəl xərclərdən daha çox paya malikdir. Almaniyada dövlətin maliyyə

---

[4] Health at a Glance 2019: OECD indicators [Electronic resource] URL: https://www.oecdilibrary.org/sites/e88a7402en/index.html?itemId=/content/component/e88a7402-en

hesabatlarında təhsilin maliyyə hesabatı əhəmiyyətli yer tutur və büdcədən ayrılan xərclərin səmərəliliyinə, hesabatların şəffaflığına nəzarət etmək imkanı yaradır. Finlandiyada isə özəl təhsil sisteminin demək olar ki, olmaması, dövlət təhsil müəssisələrində təhsilin keyfiyyətinin kifayət qədər yüksək olması, bütün təhsil pillələrinin dövlət tərəfindən maliyyələşdirilməsi, yaşadığı ərazidən, cinsindən asılı olmayaraq bütün əhali üçün keyfiyyətli təhsilin əlçatanlığının təmin edilməsi çox mühüm amildir. Digər tərəfdən təhsil müəssisələrində mütəmadi olaraq qiymətləndirmənin aparılması və nəticələrinin mütləq şəkildə dərc edilməsi təhsildə səmərəliliyi artırmağa kömək edir. Bu mütərəqqi təcrübənin Azərbaycanda da tətbiqi faydalı olardı.

Qeyd etmək lazımdır ki, hər üç ildən bir İƏİT-in Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı (PISA) 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və təbiət elmləri üzrə göstəricilərini qiymətləndirir. Adambaşına düşən məcmu təhsil xərcləri ilə PİSA qiymətləndirməsi arasında asılılığı müəyyənləşdirmək üçün aşağıdakı qrafikə nəzər salaq (Qrafik 6).




**Qrafik 6. Adambaşına düşən məcmu təhsil xərcləri ilə PİSA qiymətləndirilməsi arasında korrelyasiya asılılığı**

**Mənbə:** Education at a Glance 2023: OECD indicators [Electronicresource]https://www.oecdilibrary.org/sites/e66718ben/index.html?item Id=/content/component /e66718b-en əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıdakı qrafikə əsasən onu demək olur ki, adambaşına düşən məcmu təhsil xərcləri ilə PİSA qiymətləndirməsinin nəticələri arasında  müsbət əlaqə vardır. Belə ki, asılılıq onu göstərir ki, xərclər artdıqca şagirdlərin nəticələri də artır.

**Sosial müdafiə və sosial təminat:** Dünyada sosial müdafiə və sosial təminatla bağlı iki müxtəlif yanaşma (sosial və liberal) mövcuddur. Aşağıdakı qrafikdə liberal və sosial modellərin fərqi aydın görünür (Qrafik 7).




**Qrafik 7. İƏİT ölkələrinin bəzilərində ümumi sosial xərclərin və dövlətin sosial xərclərinin ÜDM-ə nisbəti, %, 2022-ci il**

**Mənbə:**https://www.oecd-ilibrary.org/social-issues-migration health/socialspending/indicator/english_7497563b-en əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qrafik 7-dən görünür ki, Almaniya, Finlandiya, Latviya kimi ölkələrdə dövlətin sosial müdafiə və sosial təminata ayırdığı xərclər ümumi sosial xərclərin tərkibində daha çox paya malikdir. Bu isə ölkələrin iqtisadi modelləri ilə əlaqəlidir. ABŞ liberal bir ölkə olsa da, sosial müdafiə və sosial təminat sisteminin təhlili göstərir ki, sosial müavinətlər hesabına burada həm uşaqlar, həm yaşlılar arasında yoxsulluğun azaldılmasına, yaşlıların demək olar ki, 100%-nin pensiya ilə təmin olunmasına görə bu sistemi mütərəqqi hesab etmək olar. Burada həm də dövlət pensiya təminatı ilə yanaşı, özəl peşə və fərdi pensiya təminatının olması da dövlətin sosial yükünü azaldır və pensiyaçıların rifahını daha da yaxşılaşdırır. Azərbaycanda

da qeyri-dövlət pensiya təminatının formalaşdırılması pensiyaçıların sosial vəziyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərə bilər.

Azərbaycanda yoxsulluğun azaldılması, aztəminatlı əhali qruplarının sosial vəziyyətinin yaxşılaşdırılması yollarından biri də aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsidir. Ünvanlı dövlət sosial yardımın təyin edilməsi ilə əlaqədar bir sıra çatışmazlıqlar olsa da, ölkədə yoxsulluğun azaldılmasında bu mexanizmin rolu danılmazdır. İldən-ilə ehtiyac meyarının artması həm təyin olunan sosial yardımın məbləğinin artmasına, həm də bu yardıma müraciət edən və ondan faydalanan şəxslərin və ailələrin artmasına səbəb olmuşdur. Ünvanlı dövlət sosial yardımının səmərəliliyini artırmaq və aztəminatlı ailələrin bu müavinətlərdən faydalanmaqla, həm də iqtisadi aktivliyini təmin etmək məqsədilə ÜDSY və məşğulluq arasında müəyyən bir əlaqənin qurulması istiqamətində müxtəlif tədbirlər görülməlidir. Yardım yalnız ailənin minimal ehtiyaclarını ödəməyə çatır. Odur ki, yardım alan ailənin əmək qabiliyyətli üzvlərinin əmək bazarına inteqrasiyası zəruridir. İldən-ilə yardımın məbləğinin artırılması müsbət hal olsa da, tədqiqatlar göstərir ki, bu hal getdikcə yardım alan şəxslər arasında "ələbaxımlılıq" təfəkkürünün artmasına və onların aktiv əmək fəaliyyətindən uzaqlaşmasına səbəb ola bilir. Bu baxımdan məhz əmək qabiliyyətli əhali arasında aktiv məşğulluğu təşviq etmək çox vacibdir. Bu, həm də onu göstərir ki, ÜDSY şərtsiz deyil, bir sıra İEOÖ-də (Cənubi Amerika ölkələri) olduğu kimi, müəyyən dövrdən sonra şərtli xarakter almağa başlayır. Bunu reallaşdırmağın isə müxtəlif yolları vardır:

1. ÜDSY alan ailələrin əmək qabiliyyətli və müxtəlif peşə sahibi olan, təhsilli üzvlərini təkmilləşdirmə kurslarına və ya təlimlərə, seminarlara yönəltməklə əmək bazarının tələblərinə uyğunlaşdırmaq;
2. Dövlət və özəl sektorun işəgötürənləri ilə bu işçilər arasında müəyyən koordinasiya əlaqələrinin qurulmasını təmin etmək;
3. Özəl sektor nümayəndələrinə bu qrup əhalini işlə təmin etməyə təşviq etmək məqsədilə müxtəlif güzəştlər və ya imtiyazlar təklif etmək;
4. Sosial sahibkarlığın və özünüməşğulluğun inkişafına dəstək göstərmək;

5. Bu qrup əhaliyə xüsusi kredit güzəştləri vermək.

Yuxarıda sadalanan tədbirlər ÜDSY alan şəxslər arasında işsizliyin azalmasına, bu ailələrin yoxsulluqdan çıxmasına, ölkədə formal məşğulluğun artmasına, kənd təsərrüfatı, ailə biznesi, kiçik sahibkarlıq kimi iqtisadiyyata müsbət töhfə verən sahələrin inkişaf etməsinə, uzunmüddətli dövrdə dövlətin sosial yükünün azalmasına səbəb olacaqdır. Bunun üçün isə həm qanunvericilik bazasında sadalananların öz əksini tapması, həm də əhali arasında maarifləndirmə tədbirlərinin genişləndirilməsi vacibdir.

Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə görülən tədbirlərdən biri də Özünüməşğulluq proqramının icrasıdır. Ölkəmizdə son illərdə Özünüməşğulluq proqramına cəlb olunanların sayı artsa da, proqramla bağlı bəzi çatışmazlıqlar qalmaqdadır. Belə ki, ev təsərrüfatlarında ayda adambaşına düşən gəlirlərin mənbələrinə bölgüsündə özünüməşğulluqdan əldə edilən gəlirlərin xüsusi çəkisi azalmışdır. Bu isə, özünüməşğulluq proqramlarının icrasına nəzarətin zəif, habelə bu proqramların səmərəliliyinin aşağı olmasının nəticəsidir. Bu problemləri aradan qaldırmaq, proqrama ayrılan xərclərin səmərəliliyini artırmaq üçün ünvanlılığı təmin etmək, fəaliyyətin davamlılığına nəzarəti gücləndirmək mühüm rol oynayır.

Aparılan tədqiqat göstərir ki, dövlət səhiyyə xərclərinin yüksək olduğu, icbari tibbi sığorta sisteminin geniş yayıldığı ölkələrdə sağlamlıq göstəriciləri də daha yüksəkdir. İnsanların istehlak xərcləri arasında səhiyyə xərclərinin nisbətinin çox olması aztəminatlı şəxslər arasında yoxsulluğun artmasına və insanların xərclərinin artması səbəbindən vaxtında müayinə və müalicə olunmaması sağlamlıq göstəricilərinin aşağı düşməsinə səbəb olur.

Təbii ki, bütün dünyada səhiyyə sisteminin və tibbi texnologiyanın yüksək sürətlə inkişaf etməsi ölkəmizdə də mütəmadi olaraq islahatların aparılması və təkmilləşmənin sürətlənməsini, daha şəffaf və hesabatlı, çevik idarəetmənin tətbiqini, resurslardan daha səmərəybli istifadə olunmasını və həyata keçirilən tədbirlərin davamlı və dayanıqlı olmasını şərtləndirir. İcbari tibbi sığorta sisteminin əhatəliliyinin artırılması, növbəliliyin yaratdığı problemlərin aradan qaldırılması, təcili və təxirəsalınmaz tibbi yardımın keyfiyyətinin yüksəldilməsi, ucqar rayonlarda və kənd

yerlərində tibb xidməti göstərən xəstəxana və poliklinikaların, məntəqələrin şəraitinin yaxşılaşdırılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, xüsusilə, regionlarda çalışan kadrların təkmilləşdirilməsi, yüksəkixtisaslı kadrların ucqar ərazilərə də cəlb edilməsi üçün daha səmərəli təşviqedici planların tətbiq olunması, insanların həyatı üçün vacib olan dərman preparatlarının hamı üçün əlçatan olmasının təmin edilməsi səhiyyə sisteminin inkişafına təkan verəcəkdir.

Təhsilin bütün pillələrində keyfiyyətin artırılması şagird və tələbələrin təhsil göstəricilərinin yaxşılaşdırılması üçün vacib amildir. Bu istiqamətdə məktəbəqədər və ya erkən təhsilin əhəmiyyətini xüsusilə vurğulamaq lazımdır. Məktəbəqədər təhsilin inkişafı şagirdlərin gələcək illərdə daha yaxşı təhsil imkanlarına yiyələnməsi, psixi-emosional təfəkkürünün formalaşması, sosial bacarıqlarının artırılması üçün önəmli rol oynayır. Digər tərəfdən, uşaqların erkən təhsilə cəlb olunması valideynlər, xüsusilə də, qadınlar arasında məşğulluğun artmasına təsir göstərən amillərdəndir. Bu baxımdan məktəbəqədər təhsil müəssisələrinin ölkənin hər yerində bu yaşda uşaqların hamısı üçün əlçatan olması, maddi-texniki bazasının və əsas işçi heyətinin hazırlığının qənaətbəxş səviyyədə olması mühüm əhəmiyyət kəsb edir.

Yuxarıda qeyd olunan bütün tədbirlər Azərbaycanda sosial-iqtisadi inkişafın təmin olunmasına yönəldilmişdir. Aparılan tədqiqat bir daha göstərir ki, bu tədbirlərin həyata keçirilməsi, səhiyyə, təhsil sektorunda əsaslı irəliləyişin əldə olunması, əhalinin rifahının yaxşılaşdırılması üçün ayrılan maliyyə vəsaitlərinin təkcə miqyasını genişlətmək deyil, həm də səmərəliliyi artırmaq mühüm rol oynayır. Səmərəliliyi artırmaq üçün görülən tədbirlər - kölgə iqtisadiyyatının azaldılması, xərclərin şəffaflığı və hesabatlılığının artırılması, qeyri-formal məşğulluğun minimum həddə çatdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə davamlı məşğulluğun təmin edilməsi sürətləndirilməli və dövlətin əsas prioritet istiqamətləri olmalıdır. Yalnız bu halda sosial xərclər insanların həyat şəraitinin yaxşılaşmasına səbəb ola bilər.

# NƏTİCƏ

Azərbaycanda əhalinin rifahını yüksəltmək, yoxsulluğu azaltmaq, təhsil və səhiyyə sistemini xarakterizə edən göstəriciləri yaxşılaşdırmaq, ümumiyyətlə sosial inkişafı təmin etmək dövlətin sosial-iqtisadi siyasətinin prioritet istiqamətlərini təşkil edir. Qeyd olunanların reallaşdırılması üçün hökumət əsaslı islahatlar aparır, müvafiq tədbirlər görür. Bu islahatların həyata keçirilməsi, sosial inkişafın təmin olunması üçün ayrılan maliyyə vəsaitlərinin səmərəli xərclənməsi çox vacibdir. Ölkəmizdə dövlətin sosial xərclərinin səmərəliliyinin qiymətləndirilməsindən ötrü apardığımız araşdırmalar aşağıdakı nəticələri əldə etməyə əsas verir:

1. Sosial xərclər birbaşa və dolayı olmaqla 2 cür təsnifləşdirilmişdir. Məsələn, ünvanlı sosial yardımlar, işsizliyə görə, uşaqlı ailələrə verilən müavinətlər qısa müddətli dövrdə, bəzi sosial qrupların rifah halını yaxşılaşdırmaqla yoxsulluğun, gəlir bərabərsizliyinin azalmasına səbəb olduğu üçün bu xərclər birbaşa sosial xərclər qrupuna aiddir. Təhsil və səhiyyə xərcləri isə bir növ insan kapitalına qoyulan investisiya xarakterli xərclər olduğundan və bu xərclərin müəyyən müddətdən sonra sosial-iqtisadi inkişafa təsirini qiymətləndirmək mümkün olduğundan, onlar dolayı xərclərdir.
2. Hər hansı ölkədə dövlətin sosial xərclərinin həcmi və ondan səmərəli istifadə həmin ölkənin hansı sosial-iqtisadi sistemə aid olduğunu xarakterizə edir;
3. Sosial xərclərə tələbin artdığı şəraitdə onları azaltmağa çalışmaq sosial təhlükəsizlik üçün təhdiddir və sosial stabilliyi pozur;
4. Sosial xərclərin nominal olaraq artımı, heç də onun iqtisadi inkişafla birbaşa əlaqəsinin olduğunu ifadə etmir;
5. Sosial xərclərin səmərəliliyinə iqtisadi, institusional və demoqrafik amillər təsir göstərir;
6. Azərbaycanda sosial müdafiə və sosial təminat xərcləri və səhiyyə xərclərinin artması ÜDM-in artım tempini aşağı salır, təhsil xərcləri isə iqtisadi artıma müsbət təsir göstərir;
7. Sosial xərclərin ÜDM-ə nisbətinin yüksək olduğu ölkələrdə İİİ də yüksəkdir və əksinə;

8. Ümumi, habelə adambaşına düşən səhiyyə xərcləri ilə doğulanda gözlənilən ömür uzunluğu arasında müsbət əlaqə vardır;

9. Adambaşına düşən təhsil xərcləri ilə PİSA qiymətləndirməsi nəticələri arasında müsbət asılılıq vardır;

10. Büdcə xərclərində sosial xərclərin xüsusi çəkisinin ildən-ilə artmasına baxmayaraq, xərclərin səmərəliliyinin aşağı olması səbəbindən bu sahələrin keyfiyyət göstəriciləri qənaətbəxş deyil və müqayisə aparılan bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə nisbətən aşağıdır;

11. Azərbaycanda səhiyyə sisteminin dövlət tərəfindən maliyyələşdirilməsi qənaətbəxş səviyyədə deyil. Səhiyyə sistemi güclü olan, inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda dövlətin səhiyyə ayırdığı xərclərin ÜDM-ə nisbəti olduqca aşağıdır. Son 10 ildə dövlətin səhiyyəyə ayırdığı xərclərin həm nominal olaraq, həm də ÜDM-ə nisbətdə artdığını müşahidə edilsə də, səhiyyə xərcləri hələ də azdır;

12. Demoqrafik qocalma prosesinin sürətlənməsi, Covid-19 pandemiyasının yaratdığı böhranların baş verməsi həm səhiyyə, həm də sosial müdafiə və sosial təminat xərclərini artırmaqla dövlətin sosial yükünü ağırlaşdırmışdır;

13. Azərbaycanda dövlətin təhsilə ayırdığı xərclərin ÜDM-ə nisbətinin inkişaf etmiş ölkələrlə müqayisədə az olmasına baxmayaraq, qonşu inkişaf etməkdə olan ölkələrlə müqayisədə təxminən eyni göstəriciyə malikdir. Dövlətin səhiyyə və təhsil xərclərini müqayisəli təhlil etdikdə təhsilə çəkilən xərclərin ÜDM-ə nisbətinin səhiyyəyə çəkilən xərclərin ÜDM-ə nisbətindən yüksək olduğunu görmək mümkündür.

14. Azərbaycanda sosial müdafiə və sosial təminat, təhsil xərcləri ilə yoxsulluq arasında müsbət, səhiyyə xərcləri ilə yoxsulluq arasında mənfi asılılıq vardır.

## Təkliflər

Azərbaycanda dövlətin sosial xərclərinin səmərəliliyinin artırılması istiqamətində aşağıdakıların həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

1. Potensial mənfi təsirləri minimuma endirmək məqsədilə islahatların daha dəqiqliklə hazırlanmasında, habelə həm hazırlanması, həm də həyata keçirilməsində ictimai iştirakçılıq (müxtəlif maraq qruplarının, vətəndaş cəmiyyəti institutlarının və s. iştirakı) təmin edilməlidir;

2. Strategiyaların, inkişaf konsepsiyalarının, dövlət proqramlarının icrası ilə bağlı monitorinq tədbirləri təkmilləşdirilməli və əsas icra məhdudiyyətləri aradan qaldırılmalı, monitorinqin nəticələri haqqında ictimaiyyətə hesabatlılıq artırılmalı, xərclərə nəzarət gücləndirilməlidir;

3. Şəffaflığın təmin olunması üçün sadələşdirilmiş və müasir dövlət/büdcə idarəetməsindən istifadə edilməlidir;

4. İdarəetmə və xərclər resursyönlülükdən nəticəyönlüyə keçirilməlidir;

5. Əhalinin sosial müdafiəsinə və sosial təminata ayrılan dövlət vəsaitlərinin səmərəli istifadəsi həyata keçirilməlidir;

6. Əhalinin aztəminatlı qruplarının sosial müavinətlərlə əhatə olunma səviyyəsi yüksəldilməli, aztəminatlı ailələr arasında yoxsulluğu azaltmaq, onların sosial vəziyyətlərini davamlı olaraq yaxşılaşdırmaq məqsədilə verilən ÜDSY-nin məbləğini artırmaqla yanaşı, bu ailələrin müvafiq üzvlərinin peşəyə yiyələnmək və məşğulluğunu təmin etmək məqsədilə zəruri təlim proqramlarından istifadə edilməlidir;

7. Sosial sahibkarlıq inkişaf etdirilməli, özünüməşğulluq tədbirlərinin səmərəliliyi artırılmalıdır;

8. Səhiyyəni xarakterizə edən göstəricilərin yaxşılaşması üçün bu sahəyə dövlət tərəfindən ayrılan vəsaitlər artırılmalı, ilkin səhiyyə xidmətlərinə daha çox diqqət ayrılmalıdır, xüsusilə də regionlarda səhiyyə infrastrukturu, habelə kadr təminatı yaxşılaşdırılmalıdır;

9. Təhsil sistemini xarakterizə edən göstəricilərin yaxşılaşdırılması üçün insan kapitalına investisiya qoyuluşu

artırılmalı, regionlarda maddi-texniki avadanlığın yaxşılaşdırılması ilə yanaşı, yüksəkixtisaslı kadr potensialının tədris prosesinə cəlb olunması sürətləndirilməli, məktəbəqədər təhsilə xüsusi önəm verilməli, tətbiqi və təcrübəyönümlü təhsil prosesi inkişaf etdirilməlidir.

Fikrimizcə, bu qeyd olunanların həyata keçirilməsi ölkəmizdə dövlətin sosial xərclərinin iqtisadi səmərəliliyinin artırılmasına, rifah halının yüksəlməsinə, sosial inkişafın təmin olunmasına gətirib çıxaracaqdır.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Təhməzli A.N. Azərbaycanda dövlətin sosial xərclərinin ümumi tendensiyası: 2010-2020-ci illərdə təhsil, səhiyyə və sosial müdafiə xərcləri // AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası, - 2021, - s. 54-59.
2. Təhməzli A.N., Cumazadə S.A. Sosial-iqtisadi inkişaf və onun təmin olunması yolları // “Kooperasiya” elmi-praktiki jurnal - 2021, - s. 30-39.
3. Təhməzli A.N., Cumazadə S.A. Azərbaycan Respublikasında dövlətin sosial xərcləri və demoqrafik proseslər arasında əlaqə // İqtisadi Artım və İctimai Rifah - 2022, - s. 95-106.
4. Təhməzli A.N. The impact of social expenditure on economic growth in Azerbaijan // Экономика и предпринимательство - 2022, - s. 607-613.
5. Təhməzli A.N. Azərbaycanda dövlətin sosial xərclərinin səmərəliliyi və ona təsir edən amillər // İpək yolu - 2023, - №4, - s. 88-97.
6. Təhməzli A.N. Dövlətin sosial xərclərinin səmərəliliyinin artırılması istiqamətində dünya təcrübəsinin öyrənilməsi: ABŞ və Finlandiya nümunəsində // İqtisadi islahatlar - 2023, - s. 41-54.
7. Təhməzli A.N. Объяснение концепции социальных расходов и оценка текущей ситуации в Азербайджане // - «Технологии социальной работы в различных сферах жизнедеятельности» материалы VII международной научно-

практической конференции, Россия, Махачкала - 2022 - s. 98-103.
8. Təhməzli A.N. Azərbaycanda sosial xərclərin iqtisadi artıma təsiri // "İqtisadi artım və ictimai rifah" AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi-praktik konfransın materialları -2018, - s. 726-730.
9. Təhməzli A.N. Təhsilin sosial və iqtisadi inkişafda rolu // "Şəxsiyyət, cəmiyyət və dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar" Respublika elmi konfransı, MDU, - 2019, - s. 462-463.
10. Təhməzli A.N. Dayanıqlı inkişaf məqsədləri çərçivəsində Azərbaycanda sosial inkişafın təmin olunması // Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-illiyinə həsr olunmuş "İqtisadiyyatın idarə edilməsinin müasir problemləri və perspektivləri" Respublika elmi konfransı, ADNSU, - 2023 - s. 457-460.
11. Abdullayeva R.S., Təhməzli A.N. The role of social entrepreneurship in reducing poverty in Azerbaijan // Scientific Conference of the Interdisciplinary World Congress of Urban Studies II: Disasters, Climate Crisis, Migration and Security. Cities and society in the context of disasters and migration, Transnational Press London, - 2024 – s. 371-383.
12. Abdullayeva R.S., Həşimli V.X., Təhməzli A.N. The assessment of the role of social innovations in improving welfare in Azerbaijan // New Paradigms in the economy cycle. XII traditional scientific conference on the subject: "New Paradigms in the economy: Connectivity, Innovation and Sustainability", Serbia , - 2024.

Dissertasiyanın müdafiəsi 14 fevral 2025-ci il tarixində saat $11^{00}$-da AR ETN İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED1.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəh., H.Cavid pr., 115

e-mail: economicscomaz@gmail.com

Dissertasiya ilə AR ETN İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları AR ETN İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 10 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.01.2025
Kağızın formatı: A5
Həcm: 37 252
Tiraj: 100